5 oktyabr—Beynəlxalq Müəllimlər Günüdür

# Müəllimlik ən çətin, ən şərəfli və müqəddəs peşədir

5 oktyabr Beynəlxalq Müəllimlər Günü dünyanın əksər ölkələrində təntənəli şəkildə qeyd edilir. Həmin gündə müəllimlər öz peşə bayramlarını sevinclə, fərəhlə qeyd edir, hər kəs özünün ilk müəllimini, birinci sinifdə təhsil aldığı illəri xoş xatirə kimi yada salır. Bu xatirələrdə ən əziz yeri, sözsüz ki, ona qayğı ilə qələm tutmağı, yazı yazmağı, kitab oxumağı öyrədən müəllim tutur. Müəllimlər eyni zamanda şagirdlərin dərin və hərtərəfli bilik almaları, yaşadıqları dövrün problemlərindən baş çıxarmaları üçün bütün bilik və bacarıqlarını sərf edirlər. Valideynlə bərabər, bəlkə də ondan daha çox uşağın hər cür şıltaqlığına, əziyyətinə dözmək, kədəri ilə kədərlənib, sevinci ilə sevinmək müəllimlərin üzərinə düşən ağır yükdür. Ona görə müəllimlik dünyada ən çətin, ən şərəfli peşə sayılır. Bu gözəl və şərəfli işin dəyərini bilən əcdadlarımız həmişə müəllimə hörmətlə, məhəbbətlə yanaşmışlar. Bir sözlə, müəllim əməyinin nəticəsində cəmiyyət formalaşır, savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir. Bu insanlar isə cəmiyyəti daha da inkişaf etdirir. Hazırki dövrdə dövlətimizin müstəqilliyinin möhkəmlənməsində fəal iştirak edən insanlar məhz müəllim əməyinin yetirmələridir. Sözsüz ki, hər birimizin layiqli ölkə vətəndaşı kimi yetişməsində müəllimlərimizin əvəzsiz xidmətləri olmuşdur.

Ulu öndərimiz Heydər Əliyev həmişə müəllim əməyinə yüksək qiymət vermiş, müəllim haqqında xoş sözlər söyləmişdir. Dahi rəhbər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə həmişə müəllimə hörmət və ehtiramla yanaşmış, onların maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılması qayğısına qalmışdır, O, deyirdi: «Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbrlə bizə öyrətmiş və öyrədir».

Ölkəmizdə bu gün də dövlət tərəfindən müəllim əməyinə həmişə böyük diqqət və qayğı göstərilir. Ölkə başçısı cənab İlham Əliyevin təhsilə və təhsil işçilərinə bəslədiyi yüksək səviyyəli diqqət bunun ən parlaq təcəssümüdür.

Prezidentimiz təhsilin inkişafına, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə, yeni təhsil ocaqlarının tikintisinin aparılmasına xüsusi əhəmiyyət vermiş, müsbət nəticələr qazanan məktəblərə daim diqqət və qayğı göstərmişdir.

Bu baxımdan son illər rayonumuzun ümumtəhsil ocaqlarında çalışan, təlim-tərbiyənin səviyyəsini yüksəldən və tədrisin keyfiyyətini yaxşılaşdıran müəllimlərin və məktəblərin xidmətlərini yüksək qiymətləndirilmişdir. Bir neçə müəllim səmərəli pedaqoji fəaliyyətinə görə «Şərəf nişanı», «Xalqlar Dostluğu», ordeni, «Tərəqqi» medalı, «Əməkdar müəllim» fəxri adları ilə təltif olunmuşdur.

Qəbələ şəhər 1 ,2, 4 nömrəli, Nohurqışlaq kənd tam orta məktəbləri isə son illərdə respublika üzrə «İlin ən yaxşı məktəbi» müsabiqəsinin qalibi olmuş, həmin məktəblərə ayrı-ayrılıqda pul mükafatları verilmişdir.

Biz də öz növbəmizdə gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olan müəllimlərimizi şərəfli peşə bayramları münasibətilə ürəkdən təbrik edir və gənc nəslə elmlərin əsaslarını öyrətmək yollarında onlara uğurlar arzulayırıq.

**A. CƏLALOĞLU.**
***«Qəbələ».***

# Müəllim ömrü—öyrətməkdə və öyrənməkdə keçən ömür

Hər dəfə müəllimdən söz düşəndə tələbə vaxtı Özbəkistan Respublikasının Səmərqənd şəhərində rastlaşdığım bir mənzərə yadıma düşür. Şəhərin mərkəzində böyük fateh Əmir Teymurun «Quri-əmir» adlanan əzəmətli məqbərəsi ucalır. Bu məqbərəni XIV əsrdə Əmir Teymur 20 yaşında müharibədə həlak olmuş nəvəsi Sultan Məhəmmədin xatirəsinə ucaltmış, sonra özü də burada dəfn olunmuşdur. Məqbərənin içərisində düşündürücü bir mənzərə vardır. Əmir Teymurun məzarının sağ tərəfində oğlu Şahrux Mirzə, sol tərəfində oğlu Miranşah, ayaq tərəfində nəvəsi Məhəmməd Sultan, baş tərəfində isə təsəvvür edirsinizmi kimin qəbri yerləşir? Böyük fatehin, dünyanı lərzəyə salan, böyük imperiya yaratmış, döyüşlərdə qəddarlığı ilə ad çıxarmış sərkərdənin başı üzərindəki məzarda onun ilk müəllimi Əbu Bərəkə yatır. Bu müəllimin Teymurun ailəsi ilə heç, bir qohumluq əlaqəsi yoxdur. Buna baxmayaraq Əmir Teymur vəfat edərkən ilk müəlliminin böyük fatehin ailə məqbərəsində, onun baş tərəfində dəfn olunmasını vəsiyyət etmişdir.

Tarixən müəllimə (əlbəttə, cahil insanlar istisnadır) həmişə böyük hörmət və ehtiram bəslənmişdir. Ulu öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətdə olduğu bütün dövrlərdə müəllimlərə, müəllim əməyinə böyük hörmətlə yanaşmışdır. Ulu öndər müəllim haqqında deyirdi: «Müəllimlik sənəti, peşəsi cəmiyyətdə ən yüksək qiymətə layiq bir peşədir. Müəllim olmaq kimi şərəfli bir iş yoxdur». Ölkəmizdə, o cümlədən rayonumuzda dahilərin verdiyi qiymətə layiq olanlar, şagirdlər valideynlər, ümumiyyətlə, bütün əhali arasında öz işi, əməli, davranışı ilə hörmət qazanan müəllimlər çoxdur.



İllər keçir bu cür müəllimlər öz yetirmələri və onları tanıyanlar tərəfindən həmişə hörmətlə xatırlanır, yad edilir.

Rayonumuzda öz işgüzarlığı ilə hörmət qazanmış müəllimlərdən biri də Vəndam qəsəbəsindəki 1 nömrəli tam orta məktəbin riyaziyyat müəllimi Zöhrə Mirzəyevadır. Zöhrə müəllimə əsrin dörddə biri qədər—25 ildir ki, ürəkdən bağlandığı müəllimliklə məşğuldur. Bu illər ərzində o, qabaqcıl bir müəllim kimi, qayğıkeş pedaqoq kimi şagirdlərin, valideynlərin, bir sözlə qəsəbə sakinlərinin dərin hörmətini qazanmışdır.

Zöhrə müəllimə təcrübəli bir müəllim kimi ad çıxarsa da daim öz üzərində işləyir, təhsil sahəsində baş verən yenilikləri öyrənir və işində tətbiq edir.

O bir neçə il öncə ümumtəhsil məktəblərində fənn kurikulumlarının tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunda təşkil olunmuş müsabiqədə uğurla iştirak edərək «təlimçi» statusu almışdır. Bu layihə çərçivəsində Zöhrə müəllimə respublikanın müxtəlif rayonlarında 5-8-ci siniflərdə dərs deyən müəllimlərlə keçirilən təlimlərdə təlimçi kimi işləmiş, öz təcrübəsini yaymışdır.

2015-ci ildə riyaziyyat fənninin tədrisi ilə əlaqədar Türkiyənin İstambul şəhərində fəaliyyətə başlayan beynəlxalq quruma dəvət alan Zöhrə müəllimə burada «Riyaziyyatın tədrisində konstruktiv yanaşma» mövzusunda çıxış etmişdir. Həmin çıxış böyük maraq doğurduğundan qurumun elmi-publisistik nəşrlərində çap olunmuşdur.

Zöhrə müəllimənin tədris prosesində əldə etdiyi yüksək və qabaqcıl təcrübə rayonumuzun, respublikamızın sərhədlərini aşaraq qardaş Türkiyənin və digər ölkələrin təhsil müəssisələrinə də ayaq açmışdır.

Vəndam Qəsəbə 1 nömrəli tam orta məktəbinin məzunları artıq uzun illərdir ki, ali məktəblərə qəbul imtahanlarında yüksək nəticələr göstərirlər. Bu ilki qəbul imtahanlarında da rayon üzrə 600-dən yuxarı bal toplayan 30 məzunun 6 nəfəri bu məktəbin yetirmələridir. Bu uğurlarda Zöhrə müəllimənin də böyük əməyi var. Dövlətimiz Zöhrə müəllimənin fəaliyyətini yüksək qiymətləndirir. O, dəfələrlə fəxri fərmanlara, qiymətli hadiyyələrə, diplomlara layiq görülmüşdür.

Azərbaycan Respublikası Prezidentinin 2 oktyabr 2015-ci il tarixli Sərəncamı ilə Zöhrə Mirzəyeva uzun illər səmərəli pedaqoji fəaliyyətinə görə «Əməkdar müəllim» fəxri adına layiq görülmüş, 21 dekabr 2015-ci ildə «İlin ən yaxşı müəllimi» müsabiqəsinin qalibi elan olunmuşdur.

**Qüdrət CƏMALƏDDİNOĞLU.**
***«Qəbələ».***

# Yeni tapıntılar aşkar olunub

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Qəbələ arxeoloji ekspedisiyası professor Qafar Cəbiyevin rəhbərliyi ilə qədim Qəbələ şəhərinin Qala adlanan ərazisində tədqiqat işlərini davam etdirib.

Son illərin tədqiqatları nəticəsində qədim paytaxt şəhərinin tarixinin bir sıra istiqamətlərinə dair, o cümlədən Qəbələnin ən azı 2500 il əvvəl mövcud olduğunu təsdiqləyən tapıntılar əldə edilib.

Qafar Cəbiyevin sözlərinə görə, bu tapıntılar Azərbaycanın qədim dövlətçilik tarixinin və şəhər mədəniyyəti ənənələrinin dərindən və hərtərəfli öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Professor tədqiqat aparılan Qala ərazisində şəhərin bütün dövrlərini özündə əks etdirən, olduqca qalın və zəngin mədəni təbəqə, yeni yaşayış qatı formalaşdığını və burada ilk dəfə 1926-cı ildə görkəmli Azərbaycan arxeoloqu Davud bəy Şərifov tərəfindən arxeoloji qazıntı aparıldığını bildirib. O zamandan etibarən Qala ərazisinin müxtəlif yerlərində kiçik və ya genişmiqyaslı tədqiqatların reallaşdığını deyən arxeoloq Qəbələnin tarixi ilə bağlı bir çox məsələyə elmi cəhətdən aydınlıq gətirildiyini, bununla belə, elm üçün də, arxeoloq alimlər üçün də sirli qalan məqamların hələ də çox olduğunu vurğulayıb.

Professor qeyd edib ki, builki tədqiqatlarda Qəbələnin tarixinin qaranlıq məqamlarından birinə aydınlıq gətiriləcək: "Məqsəd qədim şəhər qalıqlarının hazırkı relyefi, yeni topoqrafik mənzərəsi ilə orta əsrlərə, erkən orta əsrlər və antik dövrə aid yaşayış qatları arasında hansı dərəcədə uyğunluq, asılılıq və ya harmoniya olub-olmadığını aydınlaşdırmaqdır. Hələlik tədqiqat üçün seçilən sahədə yaşayış qatı 2.8 metr dərinliyədək öyrənilib və orada bir-birinin üstündə olan 5 tikinti qatı qeydə alınıb. Bu o deməkdir ki, təqribən hər 150-170 ildən bir əvvəlki dövrə aid tikinti qatı ondan sonra yaranan növbəti tikinti qatı ilə əvəzlənib. Relyefdəki fərqlilik tikintilərin xarakterində də müşahidə olunmaqdadır. Son tədqiqatların mühüm nəticələrindən biri də Qəbələnin Qala hissəsinin şimal tərəfində X əsrin sonu - XI əsrin əvvəllərində tikildiyi ehtimal olunan qala divarlarının qalıqlarının aşkara çıxarılmasıdır".

**"Qəbələ".**